NİZAMİ GƏNCƏVİ ADINA
MİLLİ AZƏRBAYCAN ƏDƏBİYYATI MUZEYİ

ISSN 2522-4808 (Print)
ISSN 2702-0034 (Online)

# RİSALƏ

## *Elmi araşdırmalar jurnalı*

# 1-(24)2023



**Bakı – "Elm və təhsil" – 2023**

**Nizami Gəncəvi adına Milli Azərbaycan Ədəbiyyatı Muzeyi**
**Elmi Şurasının 19 may 2023-cü il tarixli (protokol № 2)**
**qərarı ilə çap olunur**

*Baş redaktor:*
**Rafael Hüseynov,**
***akademik***

**Redaksiya heyəti:**
**Kamil Allahyarov, filologiya üzrə elmlər doktoru, professor, Nizami muzeyi, Azərbaycan**
**Xatirə Bəşirli, filologiya üzrə elmlər doktoru, professor, Nizami muzeyi, Azərbaycan**
**Şəfəq Əlibəyli, filologiya üzrə elmlər doktoru, professor, Nizami muzeyi, Azərbaycan**
**Aida Qasımova, filologiya üzrə elmlər doktoru, professor, Nizami muzeyi, Azərbaycan**
**Tofiq Məlikli, filologiya üzrə elmlər doktoru, professor, Nizami muzeyi, Azərbaycan**
**Rəhilə Qeybullayeva, filologiya üzrə elmlər doktoru, professor, Bakı Slavyan Universiteti, Azərbaycan**
**Mehdi Kazımov, filologiya üzrə elmlər doktoru, professor, Bakı Dövlət Universiteti, Azərbaycan**
**Paşa Kərimov, filologiya üzrə elmlər doktoru, dosent, AMEA Əlyazmalar İnstitutu, Azərbaycan**
**Ali Yavuz Akpınar, professor, doktor, Boğaziçi Universiteti, Türkiyə**
**Hasan Cavadi, professor, doktor, Kaliforniya Universiteti, ABŞ**
**Firuza Melvil, doktor, Kembric Universiteti, Böyük Britaniya**
**Özgen Felek, professor, doktor, Yel Universiteti, ABŞ**
**Campiyero Bellinceri, doktor, Venesiya Ka Foskari Universiteti, İtaliya**
**Mbaye Lo, professor, doktor, Dyuk Universiteti, ABŞ**
**Hendrik Boeşoten, professor, doktor, Maynz Universiteti, Almaniya**
**Nataliya Çalisova, filologiya üzrə elmlər doktoru, professor,**
**Rusiya Dövlət Humanitar Universiteti, Rusiya Federasiyası**
**Şodimaxammad Sufiyev, filologiya üzrə elmlər doktoru, professor,**
**Tacikistan Respublikası Elmlər Akademiyası, Tacikistan**
**Zemfira Səfərova, akademik, AMEA Memarlıq və İncəsənət İnstitutu, Azərbaycan**
**Cəfər Qiyasi, AMEA-nın müxbir üzvü, Azərbaycan**
**Məryəm Əlizadə, sənətşünaslıq doktoru, professor, Azərbaycan Dövlət Mədəniyyət və İncəsənət Universiteti, Azərbaycan**
**Marko Realini, professor, doktor, İtaliya Milli Tədqiqat Şurası, İtaliya**

**Risalə. Elmi araşdırmalar jurnalı. № 1 (24)**
**Bakı, “Elm və təhsil” nəşriyyatı, 2023, 120 s.**

Orta əsrlərdə müsəlman Şərqində yaradılan elmi əsərlər “risalə” adlanırdı. Nizami Gəncəvi adına Milli Azərbaycan Ədəbiyyatı Muzeyinin klassik ənənəyə riayətlə “Risalə” adlandırılmış, ədəbiyyatşünaslıq və mədəniyyətşünaslıq problemlərinin elmi araşdırmalarından ibarət məqalələr toplusu ildə iki dəfə (yaz və payız) nəşr edilir. Bu elmi araşdırmalar jurnalı məzmunu etibarı ilə filologiya (Azərbaycan və dünya ədəbiyyatı, ədəbiyyat nəzəriyyəsi, ədəbi təhlil və tənqid, folklorşünaslıq, mətnşünaslıq) və sənətşünaslıq (muzeyşünaslıq) sahələri üzrə məqalələri əhatə edir. “Risalə” elmi araşdırmalar jurnalı filologiya və sənətşünaslıq elm sahələri üzrə Ali Attestasiya Komissiyasının tövsiyə etdiyi dövri elmi nəşrlər siyahısındadır. 2019-cu ildə Azərbaycan Respublikası Ədliyyə Nazirliyinin "Mətbu nəşrlərin reyestri"nə daxil edilmişdir (Reyestr № 4216). Eyni zamanda, "Risalə" elmi araşdırmalar jurnalı 05 aprel 2018-ci ildən EBSCO beynəlxalq elektron məlumat bazasına daxil edilmişdir (Müqavilə № 46516).

**© Nizami Gəncəvi adına**
**Milli Azərbaycan Ədəbiyyatı Muzeyi**
**© 2023**

# Oxuyacaqlarınız



# RİSALƏ
# *Elmi araşdırmalar jurnalı*

*№1.2023(24)*

## Mündəricat

**KLASSİK İRS: TARİXİ VƏ NƏZƏRİ PROBLEMLƏRİ**

*HÜSEYNOV Rafael.*
Köç ədəbiyyatının Azərbaycan fenomeni: Vətəndən Vətənə mühacirətin bədii və elmi irsi
doi.org/10.30546/2702-0034.1.24.2023.7

*BAXŞIYEVA Ülkər.*
Nizaminin "Leyli və Məcnun" məsnəvisi və "hami-ovçu" arxetipindən istifadə məsələləri
doi.org/10.30546/2702-0034.1.24.2023.21

*DƏMİROVA Cəmilə.*
İbn əl-Qatta və onun "Əd-durra əl-xatira" antologiyası
doi.org/10.30546/2702-0034.1.24.2023.28

**YENİ VƏ MÜASİR DÖVRDƏ ƏDƏBİ-MƏDƏNİ PROSES**

*DADAŞOVA İlahə.*
Şahin Fazilin "Divan"lar silsiləsində "Beşinci divan" strukturu, tematikası və ideya istiqamətləri39
doi.org/10.30546/2702-0034.1.24.2023.39

*MƏMMƏDLİ Şərqiyyə.*
XX əsrin əvvəllərində Azərbaycan poeziyasında folklor motivləri: forma və janr kontekstində
doi.org/10.30546/2702-0034.1.24.2023.50

*MƏHƏRRƏMZADƏ Tamilla.*
Məmmədağa Sultanovun şeir yaradıcılığı (XX əsrin 30-cu illərinin dövri mətbuat materialları əsasında)
doi.org/10.30546/2702-0034.1.24.2023.60

*MUSTAFAYEVA Göyərçin.*
Çağdaş uyğur ədəbiyyatının şəhid şairi Lütfulla Mütəllip yaradıcılığında milli mücadilə
doi.org/10.30546/2702-0034.1.24.2023.69

**TARİXİ-MƏDƏNİ ABİDƏLƏRİN QORUNMASI VƏ TƏDQİQİ. MUZEYŞÜNASLIQ**

*ABDULXALİKOV Firdavs.*
Миниатюры Камал Ад-Дина Бехзада на «Хамсе» Низами Гянджеви –
бесценные шедевры восточного изобразительного искусства
doi.org/10.30546/2702-0034.1.24.2023.83

*QƏDİROVA Afət.*
Həyatının mənasını xalqa xidmətdə görən dahi
doi.org/10.30546/2702-0034.1.24.2023.94

*BABANLI Tomiris.*
Kitablara bağlı ömür
doi.org/10.30546/2702-0034.1.24.2023.102

*Risalə. Elmi araşdırmalar jurnalı.* *№1.2023(24)* *69-80*
**https://doi.org/10.30546/2702-0034.1.24.2023.69**

**Göyərçin MUSTAFAYEVA**
**Filologiya üzrə fəlsəfə doktoru**
Nizami Gəncəvi adına Milli Azərbaycan Ədəbiyyatı Muzeyi
**goyercin.mustafayeva@yandex.com**

# ÇAĞDAŞ UYĞUR ƏDƏBİYYATININ ŞƏHİD ŞAİRİ LÜTFULLA MÜTƏLLİP YARADICILIĞINDA MİLLİ MÜCADİLƏ

**Açar sözlər:** Milli mücadilə, Şərqi Türkistan, Lütfulla Mütəllip, uyğur ədəbiyyatı, çağdaş uyğur ədəbiyyatı

**Keywords:** National struggle, East Turkestan, Lutfulla Mutellip, Uyghur literature, contemporary Uyghur literature

**Ключевые слова:** Национальная борьба, Восточный Туркестан, Лутпулла Мутеллип, уйгурская литература, Современная уйгурская литература

**Giriş.** Tarixi kökünə sahib çıxan xalqlardan biri də uyğurlardır. İlk dəfə uyğur adına Orxon-Yenisey abidələrində, Bilgə Kağan yazısında rastlanılmışdır. Çin qaynaqlarında isə Hui-hu, Hul-ho, Hoel-ho, Wei-ho, Wei-wu kimi formada görünür. Əbulqazi Bahadır Xanın "Şəcəre-i Türk" adlı əsərində isə uyğur adının "itaətedici" anlamına gəldiyi və "uy" kökündən olduğu bilinir.

VIII əsrin əvvəllərində Göytürk dövlətinin hakimiyyəti altında yaşamağa başlayan uyğurlar 745-ci ildə bu xanlığa son verirlər, Ötükən Uyğur Xanlığı qurulur. 840-cı ildə qırğızların hücumu nəticəsində parçalanan uyğurlar cənub və cənub-qərbə köçürlər. Cənuba gedən uyğurlar Konsuya yerləşir və burada Konsu Uyğur dövləti qururlar. Cənub-qərbə gedən 15 uyğur boyundan ibarət qrup isə tibetlərlə birləşir. Uyğurların çox hissəsi Beşbalıq, Karaşar, Hoça və Turfan şəhərlərinə yerləşərək Hoça Uyğur dövləti qururlar. Hakimiyyətlərini şərqdə Hamiyə, qərbdə Kaşqara qədər yayan uyğur türkləri çoxalaraq Şərqi Türküstan Uyğur dövlətini qururlar. Uzun bir tarixi dövrdə mövcudluğunu qoruyub saxlayan, öz ayaqları üzərində durmağı bacaran Şərqi Türküstan xalqı 1878-ci ildə tamamən Çinin əsarətinə düşür. 1884-cü ildə Çin imperatoru Şin-cang Xin-jianq bölgəni Şincan – "Yeni Torpaq" adıyla öz imperatorluğuna birləşdirir. Şərqi Türküstanda Mancu sülaləsinin hakimiyyəti 1911-ci ilə qədər davam edir. Yerli xalq Çin hakimiyyətinin zülmünə qarşı dəfələrlə haqq səsini qaldırmış, hər dəfə də üsyanlar amansızlıqla yatırılmışdır. Lakin keçən əsrin 30-cu illərindən başlayaraq ölkənin bir çox bölgələrində etiraz dalğaları güclənməyə başladı. 1931-ci ildə Kumulda, 1933-cü ildə isə Turfan və Hotanda baş qaldıran xalq üsyanları Kaşqarda Şərqi Türküstan Cümhuriyyətinin qurulması ilə nəticələnsə də, bu azadlıq tez bir zamanda itirilir. 1944-cü ildə yenidən ayağa qalxan xalq həmin ilin 12 noyabrında Şərqi Türküstan hakimiyyətinin qurulduğunu yenidən elan edir. 5 il öz azadlığını qoruya bilən uyğur xalqı Sovet İttifaqının xəyanəti sayəsində 1949-cu ildə kommunist Çin xalqının hakimiyyətə gəlməsi ilə təkrarən azadlığını itirir. 1955-ci ildə Şərqi Türküstan Xin-jianq Uyğur Muxtar Bölgəsi adını alır və paytaxtı Dixuanın adı dəyişdirilib Urumçi olur.

Çin əsarəti altında qalan uyğurlar XIX əsrin sonu, XX əsrin əvvəllərində dünyada baş verən proseslər nəticəsində öz azadlıqlarını təkrar bərpa etmək uğrunda mücadiləyə başlayırlar. Şair və yazıçılar milli mübarizəni öz yaradıcılıqlarında ən yüksək zirvəyə qaldıraraq müasir uyğur ədəbiyyatının təməlini atırlar. Müasir uyğur ədəbiyyatının öndə gedən ziyalılarından Abduhalik Uyğur (1901-1933), Məhəmmədəli Tevfik (1901-1937), Azmiya Nimşehit (1901-1972), Zunun Kadiri (1912-1989), Əhməd Ziyayi (1906-1989), Lütfulla Mütəllip (1922-1945), 1940-cı illərdən başlayaraq Abdurəhim Ötkür (1923-1995) və bir çox şair-yazıçıların yaradıcılığının böyük qismini milli mübarizəyə həsr olunmuş əsərlər tutur. Çinin uyğur türklərinə qarşı başlatdığı "sol" siyasət nəticəsində uyğur ziyalılarının bir çoxunun məhv edilməsi, əsərlərinin qadağası bu xalqın dilinə, mədəniyyətinə qarşı əsl repressiya idi. Həbsxanalarda bilərəkdən çürüdülən, qatı cinayətkarlarla bir hücrədə, ağla belə gəlməyən ağır şərtlərdə həyatının ən gözəl günlərini keçirməyə məhkum olan ziyalılar əsasən türkəsillilər idi və bu repressiya bu gün də davam etməkdədir. Dünyada terrora dəstək verən, qırx milyon türkün qanına susayan Çin bu gün dünya ictimaiyyəti qarşısında özünü insan haqlarına hörmət edən bir dövlət kimi tanıtmağa çalışsa da, onların türkdilli xalqların, yəni əsl yerlilərin başına gətirdikləri müsibətlər bütün dünyaya məlumdur.

Uyğur, qazax, tatar, sarı uyğurlar, özbək, moğol (monqol) və digər xalqların haqq-hüquqlarının tapdandığı, dili, ədəbiyyatı, tarixi və mədəniyyətinin silindiyi bu ölkədə dövlətin yerli xalqlara qarşı yeritdiyi siyasətin bir parçası kimi ziyalıların qorxu, təzyiq altında yaşamalarını, yalnız icazə verilən mövzularda əsərlər yazmağa məcbur edildiyini də yaddan çıxarmamaq lazımdır.

Repressiya maşını durmadan çalışsa da, uyğur xalqının azadlığa yüksələn səsini boğa bilmirdilər. Uyğur xalqının tarixi və ədəbiyyatında yadelli işğalçılara qarşı mübarizə əsas mövzulardan biridir. Bu yolda canını qurban verən saysız-hesabsız şairlər, yazarlar olmuşdur ki, bu mübariz insanlardan, vətənsevərlərdən biri də görkəmli şair, dramaturq, xalqın Homindan boyunduruğundan qurtuluşu uğrunda mübarizə aparan Lütfulla Mütəllipdir.

**Lütfulla Mütəllipin həyat yolu.** XX əsrin əvvəllərində yaşayıb-yaratmış, çağdaş Şərqi Türküstan ədəbiyyatının inkişafında böyük xidmətləri olmuş, xalqı və vətəni üçün son nəfəsinə qədər mücadilə aparmış Lütfulla Mütəllip əsərləri ilə yaddaşlarda iz qoymuşdur. Onun yaradıcılığı təkcə şeirlərdən ibarət olmamış, yaratdığı səhnə əsərləri vasitəsilə də xalqını azadlığa səsləmişdir. Hələ gənc olmasına baxmayaraq, şair 1937-ci ildə siyasi mübarizə və bədii yaradıcılığın enişli-yoxuşlu yollarına "Xalqıma" adlı ilk şeirini "İli geziti"də ("İli qəzeti") çap etdirməklə başlayır. O, bu şeirində son dərəcə aydın və siyasi yetkinliklə inancını, xalqını azad və xoşbəxt görmək arzusunu ortaya qoyur.

Bu, 1937-ci ildə Yaponiyanın Çini fəth etməyə yönəlmiş aktiv fəaliyyətə keçdiyi olduqca qarmaqarışıq bir dövr idi. Yaponiyanın hücumuna qarşı çətin vəziyyətdə qalan və daxildə baş verə biləcək üsyan və ya hər hansı bir hərəkatı önləmək üçün Çin Kommunist Partiyası Homindan ilə birləşməyə, Vahid Milli Cəbhənin yaradılması və onun maraqları naminə bəzi siyasi istiqamət və taktiki vəzifələri dəyişdirməyə hazır olduqlarını bildirdi. Bu zaman Şincanda Homindana mürtəce-feodal düşüncəli Çan Kay Şi rəhbərlik edirdi.

1937-ci ilin avqustunda SSRİ ilə Çin arasında dostluq və əməkdaşlıq haqqında müqavilə imzalandı. 1937-1945-ci illərdə Sovet İttifaqı yapon təcavüzkarlarına qarşı mübarizədə Çin Xalq Respublikasına (ÇXR) hərtərəfli kömək edirdi. Sover İttifaqı

ÇXR-ə böyük maddi yardım göstərdi – 250 milyon dollar kredit ayırdı və silah-sursat, mütəxəssislər göndərdi. Hərbi və mülki təyinatlı yüklər Saryozek–Lanzhou quru yolu və Almatı–Lanzhou hava yolu ilə daşınırdı. Yapon işğalçıları ilə Çin ərazisi üzərində amansız hava döyüşləri zamanı 250 nəfər sovet könüllü pilotu həlak oldu. Bütün çalışmalara baxmayaraq, Çin ərazisinin böyük bir qismi Yaponiya tərəfindən işğal edildi.

Bu dövrdə Yaponiyanın hücumu səbəbindən ölkədə onsuz da kəskinləşən siyasi vəziyyət daha da gərginləşmişdi. Uyğur ədəbiyyatında xalqın xarici işğalçılara qarşı mübarizə mövzusu əsas mövzulardan biri idi. Mətbuatda işğalçılara qarşı mübarizəyə çağıran təbliğat xarakterli yazılar, şeirlər dərc olunurdu. Xalqını dərindən sevən uyğur şair və yazıçıları vətənpərvərlik ruhunda şeirlər, məqalələr, səhnə əsərləri yazaraq, insanlara sənət və səhnə vasitəsilə təsir etməyə çalışırdılar.

Şair, dramaturq və jurnalist kimi xalqının Çin boyunduruğundan azad edilməsi uğrunda mübarizə aparan Lütfulla Mütəllip də digər qələm yoldaşları kimi, uyğur xalqının gözünün açılmasına, dostunu-düşmənini tanımasına çalışan uyğur ziyalılarından biridir. Onun yaradıcılıq fəaliyyəti uyğur xalqının milli mədəniyyəti tarixində böyük əhəmiyyət kəsb edir.

L.Mütəllip 30-40-cı illərdə Şərqi Türküstan demokratik ədəbiyyatının formalaşması və inkişafına mühüm töhfələr vermişdir. Ədibin yaradıcılığı çoxşaxəlidir. O, “Ədəbiyyat nəzəriyyəsi” məşhur əsərinin, “Davanlar aşkanda” (“Aşırımlarda”) romanının, “Əlvida”, “Şair haqqında müvaşşah”, “Bahar haqqında müvaşşah” “Xəyali dilək”, “Fəryad”, “Vərən əla, xalq əla” kimi şeirlərin, “Samsak qardaş hirslənir”, “Mübarizə qızı”, “Fırtınadan sonrakı günəş”, “Çəməngül”, “Çin moden” teatr əsərləri, “Tahir ilə Zöhrə”, “Qərib ilə Sənəm” opera və dram əsərləri, ədəbiyyat və teatr haqqında yazdığı məqalələri ilə xalqını cəhalətdən və əsarətdən qurtarmaq üçün son nəfəsinə qədər mücadilə aparmışdır.

Lütfulla Mutəllip 1922-ci ildə Qazaxıstanın Almatı bölgəsinin Nilka qəsəbəsinin Çunçi kəndinin Sayboyu məhəlləsində doğulmuşdur. Şairin doğum tarixi haqqında müxtəlif versiyalar səslənir. Bu barədə dəqiq məlumatı 1950-ci ildə çap olunan “Əsərləri” kitabına və 1956-cı ildə çap olunmuş “Muhabbet hem Nepret” (“Məhəbbət və nifrət”) kitabına yazılmış önsözdə oxuyuruq: “Lütfulla Mütəllip 1922-ci ildə doğulmuş və uşaqlıq illəri İli vilayətinin Nilka qəsəbəsində, daha sonra isə Gulca şəhərində keçmişdir” [4, s.174]. 1981-ci ildə Pekində “Millətlər Nəşriyyatı”nda çap olunan Lütfulla Mütəllipin “Əsərləri” kitabçasına yazılan önsözdə qeyd olunur ki, “Lütfulla Mütəllip 1922-ci ildə Nilka qəsəbəsində bir molla ailəsində doğulmuşdur” [4, s.174]. 1982-ci ildə nəşr edilən “Lütfulla Mütəllip haqqında hekayə” və 1983-cü ildə nəşr edilən “Lütfulla Mütəllip əsərləri” adlı kitabda “Lütfulla Mütəllip 16 noyabr 1922-ci il tarixində doğuldu” [4, s.174] yazılsa da, tutarlı dəlil olmadığından hələ də düzgün məlumat qismində qəbil edilmir.

Görkəmli uyğurşünas alim Tursun Erşidin bu barədə yazır: “Lütfulla Mütəllipin atası Həzim Ahu “Min bir hədis” adlı dini bir kitabın qapağına “Lütfulla 16 noyabr 1922-ci ildə dünyaya gəldi” deyə not yazmışdır. Bununla da şairin doğulduğu ay və il haqqındakı fikirlərin üstündəki şübhə ortadan qalxmış və bu qaydaya görə doğum tarixi 16 noyabr 1922 olaraq qəbul edilməyə başlanmışdır” [10, s.30-32].

1933-cü ildə Lütfulla Kulja şəhərindəki tatar məktəbində təhsilini aldıqdan sonra rus gimnaziyasına daxil olur və rus dilini öyrənməyə başlayır. Təhsil illəri

Lütfulla Mütəllipin şüurunda dərin iz buraxır və bu dövr gənc şair-inqilabçının dünyagörüşünün formalaşmasına əhəmiyyətli dərəcədə təsir göstərir.

"Uşaq yaşlarından atasından dini bilikləri öyrənən Lütfulla şeirə, ata sözlərinə, xalq mahnılarına maraq göstərməyə başlayır. Güclü zəkaya sahib olan Lütfullanı ailəsi Gulca şəhərindəki tatar məktəbinə qoyur. Burada o, tatar və rus dillərini öyrənir. 15 yaşında "Xalqıma" adlı ilk şeirini "İli qəziti"ndə çap etdirir. Yeniyetmə-lik və gənclik illərində yazdığı üsyankar şeirlərinə görə onu "od yürəkli şair" adlan-dırırlar" [3, s.39].

Lütfulla Mütəllipin bu dövrdəki fəaliyyəti barədə məşhur tatar şairi Xamit Tuxfinin (Tuxfatullin) yazır: "Bu, onun poetik təfəkkürünün əsaslarının qoyulduğu dövr idi". Uyğur ədəbiyyatına yeni mövzular gətirən Lütfulla Mütəllip uyğur şeiri sahəsində də yenilikçi idi. Şair Şərq poeziyasının qəzəl, müxəmməs, müvaşşah, məsnəvi, müxtəmilat kimi şeir formalarından ustalıqla istifadə edərək onları yeni məzmunla doldurmaqla yanaşı, uyğur poeziyasına tamamilə yeni formalar təqdim etdi.

Gənc Lütfulla Mütəllipin "Mücadilə safından safına" şeirində xalqına sevgisi, vətən sözünə verdiyi dəyər bütün qabarıqlığıyla öz əksini tapır. Xalqının azad və müstəqil olması üçün uzun illər tökdüyü qan, verdiyi canların bir sonunun olmadığını, hər dəfəsində zülm və işgəncəyə məruz qaldığını misralara tökür:

Xalqım uzun illər zülm – işgəncə çəkdi,
Zülm üzündən dərya kimi göz yaşı axdı.
Quru çöllərdə neçə dəfə açdı mübarizə çiçəyi,
Onların arasında günəş nurutək parlayarıq [5, s.31].

İki il də rus məktəbində təhsil alan şair 1939-cu ildə imtahan verərək Urumçi Pedaqoji İnstitutuna qəbul olunur və 1941-ci ildə "Mübarizə qızı" dramını yazır. 1941-ci ilin iyun ayında "İli-Şincan" qəzeti redaksiyasında işə başlayır və bu, onun yaradıcılığında böyük dönüş yaradır.

"1941-ci ildə ehtiyac üzündən təhsilini tamamlamadan sovet mühəndislərinin hazırladıqları ekspedisiya qrupunun tərkibində tərcüman qismində Şimali Şincana gedir. Mütəllipin bu səyahət boyu uyğur xalqının içində olması, xalqın yaşamını, düşüncə və fikirlərini öyrənməsi onun dünyabaxışının formalaşması və ürəyindəki xalq sevgisinin artmasına böyük təsir edir. İkinci Dünya savaşının başlaması nəticəsində sovet mühəndislərinin ölkələrinə dönməsiylə araşdırma tamamlanır, Lüt-fulla Mütəllip Urumçiyə geri dönür. Şair Urumçiyə döndükdən sonra təhsilini orta dərəcədə tamamladı (texnikum səviyyəsində – *G.M.*) [10, s.101-104].

Lütfulla Mütəllipin səyahəti zamanı aldığı təəssüratlar, insanların yaşayışı, onların düşüncə və fikirləri ilə tanış olması şairin gələcək yaradıcılığı və milli düşüncəsinə güclü təkan verir. O, ənənəvi əruz və heca vəznində şeirlər yazmaqla yanaşı, uyğur ədəbiyyatını yeniləşdirmək üçün sərbəst vəzndə də qələmini sınamış, bu janrın çılğın təbliğatçısına çevrilmiş, millətini cəhalətdən qurtarmaq üçün xalqın azadlığı uğrunda mübarizəyə atılmış, ictimai-siyasi məzmunlu məqalələr, pamfletlər, şeirlər yazmışdır. Onun "Həyatımızın dilələri", "İllərə cavab", "Gəl bahar", "Sazəndələr" şeirləri Aksu şəhərində dərc olunan "Aksu" qəzetində nəşr edilmişdir. Şair həm də "Fırtınadan sonrakı günəş", "Samsak qardaş hirsləndi" kimi səhnə əsərlərini yazmaqla xalqını cəhalətdən oyatmağa çalışmışdır. Lütfulla Mütəllip

xalqın maariflənməsinə, öz haqqı və vətəninin azadlığı uğrunda ədalətsizliyə qarşı köhnə, sınıq qələmiylə mübarizə aparmışdır.

Şairin yaradıcılığının çoxşaxəli inkişaf etməsində tatar şairlərindən Dərdman, Qabdulla Tukay, Özbəkistan şair və yazıçılarından Ömər Muhammədi, Nur Esrail və rus ədiblərindən A.S.Puşkin, M.Y.Lermontov, M.Qorki, F.M.Dostoyevski kimi böyük qələm sahiblərinin yaradıcılıqları ilə tanışlığı mühüm rol oynayır. O, A.S.Puşkin və M.Y.Lermontov yaradıcılığından ilham alaraq yüksəldiyini “Bir tatar şairinin sözü” adlı şeirində yazır:

Puşkin və Lermontovdan təsirləndim,
Yavaş-yavaş yuxarıya doğru yüksəldim [7, s.56].

“İli-Şincan” qəzetinin müdiri Ənvər Nəsiri Lütfulla Mütəllipin istedadını görür və şairin “Mənim təzə qönçə gülüm açılırdı”, “Çin partizanları”, Günəş”, “Xalqıma”, “Əfəndi olmaq”, “Kəndlimə”, “Canan eylər”, “Böyük günəş qoynunda”, “Çin kimi” şeirlərinin çap olunmasına şərait yaradır. Ənvər Nəsiri qəzetdə müdir yardımçısı kimi çalışan şairin “Uyğur sənət dərnəyi”ndə də öz bacarığını bir sənətkar kimi göstərməsi və kiçik komediyalarını səhnələşdirib özünün də orada rol almasına böyük dəstək olur. Lütfulla Mütəllip bu şəxsin onun həyat və yaradıcılığında böyük dəstəyi olduğunu hər zaman qeyd etmişdir: “Mənim ilk müəllimim Nəsiridir. O, məni gerçəkdən də tanınmış qələm ustası olaraq yetişdirdi” [8, s.355].

**L.Mütəllipin teatr sahəsindəki fəaliyyəti.** Ümumiyyətlə, XX yüzillik uyğur ədəbiyyatının ən qarışıq və ən zəngin dövrü sayılır. Çünki bu dövrdə divan ədəbiyyatı nümayəndələri ilə heca vəznində, yəni xalq şeiri ruhunda yazanlar ənənəyə sədaqət nümayiş etdirirdilər. Avropa mədəniyyətinin təsiri altında ədəbiyyata gəlmiş bir qrup gənc isə nəsri, dramçılığı inkişaf etdirməyə çalışır, poeziyada da janr baxımından dəyişikliklər edir, sərbəst janrda şeirlər yazır, digər tərəfdən də klassik çin və yapon şeir qəliblərini uyğur şeirinə tətbiq edirdilər. Uyğur teatr sənətçiləri Avropa teatr məktəbi ilə çin teatr məktəbinin sintezini yaratmaq cəhdi göstərirdilər. Bu gənclər çin teatr sənətinin başlıca xüsusiyyəti sayılan təsəvvür olunan əşyalarla oynamaq, şərti ifadə vasitələri, üsulları, simvollaşdırılmış əl-qol hərəkətlərini uyğur teatrına gətirdilər. Beləliklə, uyğur ədəbiyyatı və mədəniyyəti bir axtarış dövrünü yaşayırdı. Lütfulla Mütəllip isə sovet rejissor və aktyorlarının təsiri altında realizmə üstünlük verirdi.

Lütfulla Mütəllipin özünün müəllif, rejissor və çox vaxt da aktyor qismində tez-tez çıxış etdiyi və xalq yaradıcılığı motivləri əsasında yazdığı pyeslərin səhnələşdirildiyi Aksu teatrında çox böyük fəaliyyətləri olmuşdur.

O, 1940-cı illərdə uyğur teatrlarında yerli müəlliflərin əsərləri ilə yanaşı, Ü.Hacıbəyovun “Arşın mal alan” operettası və özbək şairi Həmzə Həkimzadə Niyazinin 1918-ci ildə yazmış olduğu “Bay və muzdur” pyesinin də tamaşaya qoyulmasına nail olur. Bu tamaşadan sonra Üzeyir Hacıbəyovun “Arşın mal alan”ı nəinki uyğurlar arasında, hətta bölgədə yaşayan tatar və qazaxlar arasında da məşhurlaşır. Əsər müxtəlif şəhər və kəndlərdə dəfələrlə göstərilmiş, müxtəlif rejissorların tərtibatıyla səhnələşdirilmişdi. Tamaşanın təsirini bugünün özündə belə Şincan-Uyğur Muxtar Rayonunda uyğurların, tatarların, qazaxların dilində “Aman, aman ey! Halım yaman ey!” deyə zümzümə etdiklərini görmək olar.

Tamaşalarda aktyorluq, rejissorluq, bəstəkarlıq edən gənc Lütfulla Mütəllip “Arşın mal alan” operettasını səhnələşdirməklə kifayətlənmir, xalq dastanları

əsasında hazırladığı "Qərib–Sənəm", "Tahir–Zöhrə" operalarını da xalqının mühakiməsinə verir. İstedadlı şair, publisist və dramaturq olan Lütfulla Mütəllipin 1942-ci ildə, yəni 20 yaşında yazdığı və elə həmin il də səhnələşdirilən "Gerçək Moden" pyesi Çin valisi Şeng-Şi-Şey tərəfindən yasaqlanır və ona qarşı təqiblər başlanır. Lütfulla Mütəllip təqib edilməsinə baxmayaraq, bədii yaradıcılığı və siyasi mübarizəsini bir an belə dayandırmır. Rus dilində təhsil alması, bu dilin vasitəsilə inqilabi ədəbiyyatla tanışlığı, K.Marksın, F.Engelsin, B.İ.Leninin, İ.V.Stalinin əsərlərini oxuması, eləcə də dünyada kabus kimi dolaşan kommunizm ideologiyası Lütfullanı da yeniyetməlikdən öz təsiri altına alır. O, milli azadlıq mübarizəsinə kommunizm ideologiyası ilə nail olacaqlarına inanır.

**L.Mütəllipin milli mücadiləsi.** Çin imperiyasının zəiflədiyi 20-ci yüzilliyin birinci yarısını uyğurlarda milli şüurun, ədəbi mühitin yüksəlişi, 30-40-cı illəri isə uyğur dramaturgiya sənətinin "qızıl dövrü" adlandırmaq olar. Çünki bu dövrdə Lütfulla Mütəlliplə yanaşı Zunun Kadıri, Hamit Hakim, Ziya Səmidi, Qasımcan Qəmbəri kimi sənətkarlar "Cəhalətin cəfası", "Künçəm", "Gülnisa", "Samsak qardaş hirsləndi", "Mübarizə qızı", "Gerçək Moden", "Fırtınadan sonrakı günəş", "Qanlı dağ", "Zülümə Zaval", "Pirixun", "Əmət Sərrap" və s. dram əsərlərini yazıb səhnələşdirmişdilər.

"Lütfulla Mütəllip xalqının cəhalət və əsarətdən qurtarması üçün yazmış olduğu şeirləri, maqalələri və səhnə əsərləriylə kifayətlənməmiş, azadlıq mübarizəsinə 1945-ci ildə İli, Altay, Tarbagatay bölgələrində yaşayan uyğur kəndlilərinin də Çin hökumətinə qarşı başlatdığı Üç Vilayət inqilabına qoşularaq mübarizəsini davam etdirmişdir" [2].

İkinci Dünya müharibəsinin başlanması ilə rus mühəndisləri işləri yarımçıq qoyaraq ölkələrinə dönür. Urumçiyə qayıdan Mütəllip "Şincan" qəzetində işə başlayır və qəzetin bir səhifəsini "Ədəbiyyat gülzarı" adlı başlıqla çıxarmağa başlayır. L.Mütəllip qəzetdə "Ədəbiyyat gülzarı" rubrikası altında özünün felyeton və "Azadlıq toyu", "Qəhrəman illər", "Çin qızı Rehannın mart küləklərinə buyruğu", "May – mübarizə ayı", "Həsən-hüsan", "May mahnısı", "Lenin belə öyrətmiş", "Yanar dağlar" və s. şeirləri ilə çıxış edir. 1942-ci ildə şairin "Samsak qardaş hirsləndi" komediyası, 1943-cü ildə "Çin Moden" və "Fırtınadan sonrakı günəş" dramı, ədəbiyyat və incəsənət haqqında məqalələri dərc edilir.

L.Mütəllipin doğma vətəninin təbiət gözəlliklərinə həsr etdiyi şeirlərində bir coşqu, bir ümid var. O, kənd həyatı yaşayan xalqının çəkdiyi zülm və əziyyəti görsə də, bir gün yenə "baharın", gözəl günlərin gələcəyini söyləyir və şeirləri ilə insanların qəlbində ümid işığı yandırır. "Dixanimga" ("Kəndlimə") adlı şeirində qışın bitib baharın gəlməsiylə çətin günlərin bitməsini dilə gətirən şair yazır:

Qışlar getdi, bahar gəldi.
Günün işığı
    Saçıldı.
Ağappaq qarlar əridi.
Bostançım, baharı
Sevdinmi?
Bağçalarda quşlar ötür
Eşq və sevgiylə [6, s.47].

Şairin sərbəst şeir formasında yazdığı şeirləri, ideoloji fikir və düşüncələri Nazim Hikmət yaradıcılığı ilə üst-üstə düşür. Lütfulla Mütəllip də, Nazim Hikmət kimi, kommunizm fikir-düşüncəsinə sahib idi. Bu fikirləri şair rus-tatar məktəbində aldığı biliklər, oxuduğu ədəbiyyat nəticəsində mənimsəmişdi. Lütfulla Mütəllipə görə, B.İ.Lenin və İ.V.Stalin örnək alınacaq böyük liderlərdir. Şairin o zamanlar hələ "qanlı dişini" görə bilmədiyi kommunizm və kommunistlər dünya ictimaiyyətinin "gözünü necə boyamışdısa", Lütfulla Mütəllip kimi gənclər bu ideologiyanın təsiri altında qalmışdılar. Lütfulla Mütəllip yaradıcılığında fikir verilməsi lazım gələn önəmli cəhətlərdən biri də şairin Şərqi Türküstanı azad görməsi yox, bütün Çinin zülm, əsarətdən azad olunması məsələsidir. Şair bəzi şeirlərində "Vətənim" deyərkən Şərqi Türküstanı yox, məhz Çini nəzərdə tutur, "Çin oğluyam" deyir. O, azadlığa nail olmanın yolunu Çində yaşayan bütün millətlərin Çinin bütünlüyünü qorumasında görür.

Hər iki şairin damarlarında türk qanı axır. Onlar xalqları azad yaşayan, ədalətin hakim olduğu bir dövləti görmək üçün mübarizə aparmış, biri vətəndən uzaqda, digəri də vətəndə vətən həsrəti ilə şəhid olmuşlar.

Lütfulla Mütəllip yaradıcılığının ana xəttini "əzilən" və əzən" mövzusu təşkil edir. Şair təkcə öz xalqının dərdini yox, dünyanın hər yerində zülmə məhkum olunmuş insanların ah-naləsini dilə gətirir. Xalqı zülm və əsarətdən qurtarmağın əsas yolunu savad və bilikdə görən şair yalnız elm, bilik və gözəl əxlaqa sahib olan mübariz gənclərə inanır.

Mübariz oğlanlar illərdir mübarizə aparırlar,
Mübarizə üçün bir yol tapdılar.
Xoşbəxtlik üçün axşam qurban olanların
Məzarı üstünə güllər düzülür [6, s.32].

Yaşadığı dövrü, aldığı təhsili, gənc şairin yetişdiyi siyasi mühiti nəzərə alsaq, Lütfulla Mütəllip yaradıcılığında Çin dövləti onun üçün ana vətən, bir qarış torpağından vazkeçilməz yurddur. "Şincan oğul-qızları" şeirində "Şincan xalqı vətənini cənnətə çevirəcək" deyən şair "Cunqo" şeirində ana vətənin Çin olduğunu və bu torpaqlarda yaşayan xalqın bir millət olduğunu vurğulayır. Onun vətənə həsr etdiyi bütün şeirlərində Çin hakimiyyətinin varlığına, xalqının azad və var olmasına inanc görünür. Yaponiyanın Çinə hücum etməsini şair "Məhəbbət və nifrət" şeirində ürək dağlayan misralarla dilə gətirir.

Şair bu gün Çin hakimiyyətinin uyğur xalqına tutduğu ağlagəlməz zülmləri görsəydi, yəqin ki, "Vətən – Çin, bayraq Çin – bayrağıdır" deməsinə peşman olardı:

Budur, əlində Çin bayrağı dalğalanır.
"Vətənim" deyə irəli baxıb düşünür [6, s.13].

"1943-cü ilin gəlişiylə bərabər Şincanın siyasi havasında böyük dəyişikliklər olur. Şin Şi Sey "gəlişim maskası"nı çıxarıb Homindan partiyasına qatılır. Yanvar ayında Şincanda Homindan partiyasının İli şöbəsi açılır. İyun ayında Homindan idarə heyəti "Şincan" qəzetinə nəzarət etmək üçün təmsilçisi Fen Gun Bini "Şincan" qəzetinin başına gətirir. Çünki "Şincan" qəzeti ozamankı Şincanın təşkilat orqanı və Şincandakı hakimiyyətin mühim bir silahıydı" [10, s.139-140].

Homindanın hakimiyyətə gəlməsi ilə Lütfulla Mütəllipin və onunla eyni düşüncəyə sahib olan vətənsevər insanların təqibi və həbsi başlanır. 1943-cü ildə Homindan partiyası tərəfindən işindən uzaqlaşdırılan Lütfulla Mütəllip, bir növ, mədəni sürgünə göndərilir. Şairi tanıyan, qələminə, şəxsiyyətinə hörmət edən, tanıyan auditoriyadan ayıraraq onu Aksu şəhərində "Şincan" qəzetinə köməkçi müxbir təyin edirlər. Aksu şəhərində ictimaiyyət şairi böyük sevinclə qarşılayır. O, burada Nimşehit, Bilal Əzizi kimi gənc şairlərlə bir araya gələrək qəzetdə "Cənub küləyi" adlı ədəbi səhifə yaradır və xalqı parlaq gələcəyə, azadlığa səsləyən mübarizə ruhlu yazılar çap etdirməyə başlayırlar. Bu səhifədə onun "İllərə cavab", "Gəl, bahar", "Sazəndəm" və digər əsərləri çap olunur. Azad fikirli şair ətrafına topladığı mübariz ruhlu gənclərin dəstəyi ilə hakimiyyətdə olan üsuli-idarənin uyğur xalqına qarşı törətdiyi zülmə susmamağa, xalqının maariflənməsi işində haqq səsini qaldırmağa çalışır. Xalqın hakimiyyətə baş əymədiyini görən Homindan rəsmilərinin tapşırığı ilə şəhərdə Lütfulla Mütəllip və onun tərəfdarlarına qarşı terror başladılır.

Qəzetdə olduğu kimi, ədəbi səhifədə də müxtəlif yaşlarda olan bir çox yazıçı, şair və dramaturqların əsərləri, siyasi felyetonları, sülh, azadlıq, müstəqillik kimi yüksək anlayışlar daşıyan şeirləri mütəmadi olaraq nəşr olunurdu. Şairin 1944-cü ildə yazdığı "Yaşamaq üçün mübarizə" şeirində bunu aydın görmək olur:

Çətinlik istəmirəm
Digər xalqlara,
Xalqım onları kifayət qədər gördü.
Uyğur, mən bilirəm
Dinc həyatın qiymətini,
Sülh istəyir hər ölkə.
Və mən sevirəm
Azadlığı sonsuzadək.
Dünyada ondan daha yüksək nə var! [6, s.15]

Bu dövrdə şairin məşhur "Mübarizə mahnısı" əsəri işıq üzü görür:

Xeyr, biz, dostlar, titrəməyəcəyik,
Axı bizi irəli aparırlar,
Yüksək ideyalar
Xalqımız uğrunda mübarizədə.
Onun azadlığı uğrunda mübarizə aparmaq
sona qədər,
Əllərimizi bərk-bərk sıxacağıq
Və ürəklərimizi sərtləşdirərək... [6, s.17]

Şairin siyasi rejimə qarşı vətənpərvərlik ruhu, cəsarətli yaradıcılıq fəaliyyəti Çin hakimiyyətini narahat edirdi. 1944-cü ildə Homindana qarşı Üç Vilayət inqilabı başlandığı üçün Aksu sakinlərinə, xüsusilə ziyalılara nəzarət gücləndirilir. "1945-ci ilin əvvəlində yazıçı və vətənpərvər L.Mütəllip "Şərqi Türküstanın qığılcımları" adlı gizli bir təşkilat yaradır. Təşkilatın məqsədi xalqı Homindan zəncirindən azad etmək idi. Təşkilatın himni də Lütfulla Mütəllip tərəfindən yazılır" [9, s.17].

1944-1945-ci illərdə Şincanda Lütfullanın rəhbərlik etdiyi gizli inqilabi gənclər təşkilatı sıralarında ən şüurlu və aktiv gəncləri birləşdirirdi. Təşkilat ilk günlərindən

mürtəce Homindan rejiminə qarşı gizli bir mübarizəyə başlayır. Lakin təşkilatın üzvləri Həkim Nur və Yasin Əzizi xain olduqları üçün Homindan partiyasının məmurları Lütfulla Mütəllipi və silahdaşları Bilal Əzizi, Müniridin Xoca, Abla Mevlanjan, Rozi Turdiyof və otuza yaxın məsləkdaşını həbs edirlər. Xalqının azadlığı və xoşbəxtliyi uğrunda çinli cəlladlara qarşı cəsarətlə mübarizə aparan Lütfulla Mütəllip və məsləkdaşları 1945-ci il sentyabr ayının 18-də Homindan qaniçənləri tərəfindən vəhşicəsinə işgəncələr edilərək öldürülürlər.

Bəzi məlumatlara görə, cəlladlar əvvəlcə Lütfullanın başını jadu (kobud mal-qara yemini kəsmək üçün böyük bir bıçaq) ilə kəsmiş və bədənini hissələrə parçalamışdılar. Lütfulla Mütəllip və silahdaşlarının edam edilməsinə qəzəblənən xalq üsyan qaldıraraq həbsxanaya hücum edir və oranı ələ keçirir. Və şairin yatdığı hücrənin divarında öz qanıyla yazdığı iki misralıq bu şeiri görürlər:

Bu geniş torpaqlar mənə oldu cəhənnəm,
Tər gülümü xəzan etdi qaniçən düşmən [1, s.97].

Lütfulla Mütəllip Şərqi Türküstan demokratik ədəbiyyatının formalaşması və inkişafında mühüm xidmətləri olan, məşhur poetik əsərlər, dramlar, nəsr əsərlərinin müəllifidir. Şairin publisistikası və felyetonları uyğur ədəbiyyatında önəmli yer tutur. O, çağdaş uyğur ədəbiyyatında iz qoymuş, klassik cağatay və uyğur xalq şeirini birləşdirərək, uyğur ədəbiyyatını zirvəyə daşıyan milli ruhlu, xalqının azadlığı yolunda mübarizə aparan şairdir. Bu gün gənc uyğur yazarları Lütfulla Mütəllip irsini davam etdirirlər.

“Lütfulla Mütəllip və silahdaşlarının vəhşicəsinə edam edilməsindən beş il sonra vətəni və xalqı uğrunda canını fəda edən şairi xatırlayan uyğur xalqı həbsxanaya gəlir və burada şəhid edilmiş vətənsevərlərin basdırıldıqları yeri öyrənmək üçün keşikçilərə hücum edir. Xalqın hücumundan qorxan keşikçilər “şairin daha öncədən bir donuz damı olan, bu gün isə ayaqyolu kimi istifadə edilən yerdə dəfn edildiyini söyləyirlər” [10, s.214].

Keşikçilərin göstərdikləri yeri qazan xalq Lütfulla Mütəllip və silahdaşlarının parçalanmış cəsədlərinin üst-üstə basdırıldığını görürlər. Cəsədləri toplayan xalq şəhidləri islam adəti ilə dəfn edir. 23 il ömür sürmüş Lütfulla Mütəllip bu gün uyğur xalqı üçün bir örnək, qürur yeridir. Müsəlman uyğur, tatar, qazax, qırğız, sarı uyğurlar bu gün Çin dövlətinin zülmü altında əzilməkdədir. Çinin qorxunc soyqırımı təkcə insanlara deyil, onların məzarlarına qarşı da həyata keçirilməkdədir. Lütfulla Mütəllip kimi vətənsevər şairin məzarının başqa bölgəyə daşındığı söylənsə də, bu günə qədər harada olduğu bilinmir. Yəni onu xalqın yaddaşından çıxarmaq, yox etmək niyyəti güdülmüşdür, eləcə də uyğurların qədim məzarlıqları, məbədlər, ziyarətgahlar, mədrəsələr, qədim tikililər də Çinin “yoxetmə” siyasətinə məruz qalmışdır.

L.Mütəllipin hansı janrda yazmasından asılı olmayaraq, onun ilham mələyi “azadlıq”, “mübarizə” və “qadın azadlığı”dır. Bu, şairin bütün əsərlərində nəzərə çarpır. “Mübarizə”, “azadlıq”, “maarif”, “incəsənət”, “vətən” anlayışları şairin dilində daha çox səslənir. Doğma torpağın gözəllikləri şairin vətən sevgisinin oyanması və güclənməsinə, torpaqda çalışan kəndlinin çəkdiyi əməyin, aldığı qazancın dəyərini anlayıb dərk etməsinə səbəb olmuşdur.

23 yaşında şəhid edilmiş Lütfulla Mütəllip doğma torpağının işıqlı sabahına inamla dolu şeirlər, pyeslər, satirik broşürlər yazmaqla xalqının azadlığı yolunda son

damla qanına qədər mübarizə aparmışdır. Lütfulla Mütəllipin xanımı, 18 yaşlı Sopiyam Baiz qızı şair öldürüldükdən sonra yeganə övladı ilə dul qalır. Çin cəlladları dul qadını da təqib etməkdən əl çəkmirlər. Nəticədə Lütfullanın övladı da aclıqdan ölür. Lütfulla Mütəllip vətəninin azadlığı uğrunda mübarizədə şəhid olsa da, onun ideyaları reallaşır. Şərqi Türküstan hökuməti qurulur. Nə yazıq ki, iki imperialist dövlət – Çin və SSRİ-nin gizli planıyla bu hökuməti 1947-ci ildə qan içində boğurlar.

L.Mütəllip uyğur xalqının milli qəhrəmanı elan edilmiş və şairin ailəsinə "Mərkəzi fəhlə və kəndli hökuməti"nin həmsədri Mao Ze Dun (1893-1976) tərəfindən şəxsən imzalanmış xüsusi bir sertifikat verilmişdir.

1952-ci ildə L.Mütəllipin qazax dilində "Jıldarğa jayan" ("İllərə cavab") geniş şeirlər toplusu işıq üzü görür. Almatıda, Daşkənddə uyğur dilində "May mahnısı" və "İldırım kimi gənclik" əsərləri üç dəfə nəşr olunur. Şairin əsərlərinin ən dolğun nəşri 1975 və 1982-ci illərdə işıq üzü görür, şeirləri uyğur qəzetlərində dərc olunur, əsərləri Almatıda yenidən çap olunur, özbək, rus, çin dillərinə tərcümə edilir.

İnqilabçı şair qısa həyatında hər bir insanda vətənpərvər hisslər yaradan ölməz poetik cizgilər buraxmışdır. O özü də şeirin əbədi olduğuna inanırdı:

Əfsus, şair görünmür! O, çoxdan yoxdur...
Bu, doğrudurmu? Olmaya bilərmi məgər şair?
Xeyr, şairin ürəyi döyünür! O, olmaya bilməz,
Poeziya torpaqda basdırıla bilməz.
Şair əsrlərin o yanından danışır! O, qanadlı xəbərdir,
O, hər sətirdədir, o – çayın nəğməsidir, o – vardır! [6, s.24]

Bu gün Böyük Aksu kəndinin mərkəzi küçələrindən birinə Lütfulla Mütəllipin adı verilib. Uyğur rayonunun bir sıra kəndlərində də küçələrə, məktəblərə şairin adı verilmişdir.

L.Mütəllip müasir şəraitdə millətçiliyin geri qaldığını və tarixi perspektivinin olmadığını çox dərindən hiss edirdi:

Öz soyumu
Lap qədim zamanlardan bilirəm,
Uyğuram mən,
Burada qohumlarımı saymaqla qurtarmaz.
Və mən sevirəm –
Azadlığı və Vətənimi,
Dünyada onlardan daha yüksək nə var!
Ancaq vadinin arxasında
Bir vadi də var.
Çayın arxasında isə dənizlər,
Qitələr...
Bir halda ki insanlıq
Saysız-hesabsızdır,
Hamımız eyni planetin yerliləriyik! [6, s.27]

L.Mütəllip, Qabdulla Tukay kimi, Şərqi Türküstanın türkdilli ədəbiyyatında Avropa fikir və baxışlarının, eyni zamanda qədim uyğur klassik ədəbiyyatı ənənələri-

nin müasir Avrasiya düşüncə konsepsiyasına uyğun formalaşmasına təkan verdi. Hələ gənc yaşlarında bu gün dünyanın bir çox bölgəsində "yaşıllaşan" yeni düşüncə toxumlarını əkdi. Gənc şair Homindan gilyotinində məhv edilsə də, düşüncə və fikirləri, erkən son verilən faciəvi həyatı, bir-birindən gözəl əsərləri ilə xalqına bu gün də yol göstərməkdədir.

Əlaqə
E-mail: **goyercin.mustafayeva@yandex.com**

## İSTİFADƏ OLUNMUŞ ƏDƏBİYYAT:

1. Erkin, Emet. Çağdaş Uygur Şiiri ve Antolojisi./Ankara, 1998
2. https://m.facebook.com/media/set/?set=a.182528155137496.46387.105657086157937&type=3
3. Бахавудун, И., Имин, А., Баудунов, А. Династия уйгурских интеллектуалов. / Б: ОАО «Эркин-Тоо», – 2012
4. Baran, Lokman. Lutpulla Mutəllipin hayatı, Sanatı ve Eserleri. – 2008
5. Mütəllip, L. Jıldarğa jayan. – Alma-ata, – 1952
6. Лутпулла Муталлип әсәрлири. – Урумчи. – 1983
7. Molavutov, Savut. Uygur Edebiyati Davanliri. – Almuta, – 2002
8. Zaman, Nurməhəmməd. Uygur ədəbiyyatı tarixi (Uygur Hazirki Zaman Edebiyati Kismi). /Urumçi, – 1995
9. "Şinjang tezkiriçiliki" jurnalı, №1, 2006
10. Erşidin, Tursun. Lutpulla Mutallip va uning kachürmishliri. /Ürümchi: Shinjiang khalq nashriyati, – 1998

**Məqaləyə istinad:** Göyərçin Mustafayeva. Çağdaş uyğur ədəbiyyatının şəhid şairi Lütfulla Mütəllip yaradıcılığında milli mücadilə. Risalə. Elmi araşdırmalar jurnalı. Nömrə 1 (24), 2023. səh.69-80.
DOİ: 10.30546/2702-0034.1.24.2023.69

***Goyarchin MUSTAFAYEVA***

## THE NATIONAL STRUGGLE IN THE CREATIVITY OF LUTPULLA MUTELLIP, THE MARTYRED POET OF CONTEMPORARY UYGHUR LITERATURE

***S u m m a r y***

Lutpulla Mutellip, a poet, writer and playwright who made important contributions to the formation and development of Uyghur literature in the 30$^{s}$ and 40$^{s}$ of the 20$^{th}$ century, and was one of the leading intellectuals of contemporary Uyghur literature who led the national struggle for the freedom of his people. Lutpulla Mutellip, who was not satisfied with the poems, articles and stage plays he wrote for the liberation of his people from ignorance and slavery, joined the freedom struggle and took up arms against the Chinese government at a young age. On September 18, 1945, Lutpulla Mutellip and his colleagues who bravely fought against the Kuomintang armies for the freedom and happiness of their people were brutally killed. In his short life, the revolutionary poet left valuable works to the

***Гоярчин МУСТАФАЕВА***

## НАЦИОНАЛЬНАЯ БОРЬБА В ТВОРЧЕСТВЕ ПОЭТА-ШЕХИДА СОВРЕМЕННОЙ УЙГУРСКОЙ ЛИТЕРАТУРЫ ЛУТФУЛЛЫ МУТАЛЛИПА

***Р е з ю м е***

Поэт, писатель, драматург Лутфулла Мутеллип был одним из выдающихся представителей интеллигенции современной уйгурской литературы 30-40 гг. XX в. Он вёл национальную борьбу за свободу своего народа и внёс неоценимую лепту в формирование и развитие уйгурской литературы. Не довольствующийся созданными им стихотворениями, статьями и драматургическими произведениями, призывающими к освобождению своего народа из оков невежества и кабалы, юный Лутфулла Мутеллип взял на руки оружие против китайского правительства и присоединился к освободительному движению. Лутфулла Мутеллип и его соратники, ведущие бесстрашную борьбу во имя освобождения и счастья своего народа против войск Гоминдана, были зверски убиты 18 сентября 1945 г. Поэт-революционер оставил после своей короткой жизни в наследие уйгурскому народу бесценные произведения и бессмертные поэтические черты, зарождающие в сердцах молодёжи патриотические чувства.